**Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın**
**Azərbaycanın Hasilat Sənayesində Fəaliyyət Göstərən**
**Yerli və Xarici Şirkətlərlə**
**Əməkdaşlığına dair**

# Razılaşma

---

"Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanına əsasən hasilat sənayesində şəffaflıq və hesabatlılığın artırılmasını təmin etmək məqsədilə:

- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanına (bundan sonra – Fərman) əsasən yaradılmış Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya (bundan sonra - Komissiya);
- Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən və adı Əlavə 1-də göstərilmiş yerli və xarici şirkətlər (bundan sonra - Şirkətlər)

Ayrı-ayrılıqda "Tərəf", ümumilikdə isə "Tərəflər" adlanmaqla:

Fərmanın 1-ci bəndində göstərilmiş aşağıdakı beynəlxalq prinsiplər əsas götürməklə:

1. təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;
2. təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkanverən mühüm vasitədir;
3. dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə şəffaflıq və hesabatlılıq standartları təşviq edilməlidir;
4. dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;
5. şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;

6. hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;
7. ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;
8. bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir

aşağıdakılar barədə razılığa gəldilər:

## 1. HSŞ üzrə hesabatlılıq

1.1. Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən Şirkətlərin dövlətə ödənişləri və dövlətin həmin Şirkətlərdən daxilolmaları, onların ixtisaslaşmış, müstəqil və beynəlxalq nüfuzlu audit şirkəti tərəfindən (bundan sonra Müstəqil Auditor) tutuşdurulmasının (bundan sonra – Tutuşdurma) nəticələri barədə Müstəqil Auditorun hesabatı və bu Razılaşmanın Əlavə 4-də müəyyən edilmiş digər məlumatları özündə ehtiva edən **Hasilat Sənayesində Şəffaflıq üzrə ümumiləşdirilmiş hesabat (bundan sonra - HSŞ hesabatı)** hesabat ilindən sonrakı ilin 31 dekabr tarixinə qədər hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə beynəlxalq standartlara uyğun hazırlanır və dərc edilir. İlk HSŞ hesabatı 2016-cı ili əhatə edəcəkdir.

1.2. Hesabat dövründə hasilat sənayesi şirkətləri tərəfindən edilən ödənişlər və dövlət tərəfindən əldə edilən daxilolmalara dair üzləşmə prosesində mühasibat uçotunun kassa metodundan istifadə edilir.

1.3. HSŞ hesabatının hazırlanması üçün Müstəqil Auditor müsabiqə yolu ilə Komissiya tərəfindən seçilir.

1.4. Komissiyanın cari fəaliyyətinin təşkilini həyata keçirən Komissiyanın Katibliyi (bundan sonra - Katiblik) Müstəqil Auditorla müvafiq xidmətlərin göstərilməsi

barədə müqavilə (bundan sonra - Müqavilə) bağlayır. Müqavilənin müddət və şərtləri Komissiya tərəfindən müəyyən edilir.

1.5. Komissiya hesabat formalarının birbaşa Müstəqil Auditora Müqavilədə göstərilmiş son müddətədək təqdim olunması barədə Şirkətlərə bildiriş məktubu göndərir.

1.6. Dövlətin hesabatı Komissiya tərəfindən, Şirkətlərin hesabatları isə Şirkətlər tərəfindən Komissiyanın müəyyən etdiyi Əlavə 2-də göstərilmiş formalara əsasən tərtib edilir və Müqavilədə müəyyən edilmiş son müddətdən gec olmayaraq birbaşa Müstəqil Auditora təqdim olunur.

1.7. Müqaviləyə uyğun olaraq dövlətin və bütün Şirkətlərin hesabatlarının təqdim olunduğu son tarixdən ən azı 60 (altmış) təqvim günü ərzində və Müqavilədə göstərilmiş son müddəti aşmamaq şərti ilə Müstəqil Auditor dövlətin hesabatı ilə Şirkətlərin hesabatlarını təhlil edərək tutuşdurur, uyğunsuzluqları araşdırır, bunun əsasında Müstəqil Auditorun hesabatını hazırlayır və Əlavə 4-də göstərilmiş digər məlumatları toplayaraq yekun HSŞ hesabatını Komissiyaya təqdim edir. Zərurət yarandıqda, Komissiyanın qərarı ilə bu müddət uzadıla bilər.

1.8. Aşkar edilmiş bütün uyğunsuzluqlar və onların əsaslandırılmış izahı barədə müvafiq məlumatlar HSŞ hesabatında öz əksini tapmalıdır.

1.9. Komissiya yekun HSŞ hesabatı ilə bağlı mətbuat üçün məlumat hazırlayıb onu dərc etdirir, hesabatın nəşr olunması və paylanmasını həyata keçirir.

## 2. <u>Ləngimələrin həlli</u>

Tərəflər HSŞ hesabatı hazırlanan zaman ləngimə, çatışmazlıq, texniki qüsurların olması ehtimalını istisna etmir və bunların xoş məramla, Müstəqil Auditorla əməkdaşlıq nəticəsində aradan qaldırılması zərurətini qəbul edirlər.

## 3. Məxfilik

3.1. HSŞ çərçivəsində Tərəflər Azərbaycan Respublikası qanunvericiliyinə görə məxfi sayılan məlumatların açıqlanmasına yol verməyəcək, həmçinin təbii ehtiyatların istismarı üzrə müvafiq sazişlərdəki, o cümlədən hasilatın pay bölgüsü sazişlərindəki məxfilik barədə bəndləri nəzərə alacaq.

3.2. Tərəflərin hər bir üzvü Komissiyanın qərarı ilə açıqlanmış məlumatlar istisna olmaqla bu Razılaşma ilə, həmçinin Komissiyanın fəaliyyəti ilə bağlı yazılı, şifahi və ya elektron formada əldə etdiyi bütün məlumatların məxfiliyininin qorunmasına cavabdehdir. Bu altbənddə qeyd olunmuş öhdəliklər Tərəflərin Razılaşmanı və ya Komissiyanı tərk etmiş hər bir üzvünə üç il müddətində şamil olunmaqda davam edəcək.

## 4. Razılaşmanın qüvvəsi

Bu Razılaşma niyyət bəyanatı olaraq, Tərəflər arasında (Tərəflər üçün məcburi hüquqi qüvvəyə malik olan bu 4-cü bənd və 3-cü bənd istisna olmaqla) hüquqi qüvvəyə malik müqavilə yaratmır və beləliklə, yerinə yetirilmədiyi təqdirdə, bu 4-cü bənd və 3-cü bənd istisna olmaqla, Tərəflərin heç biri üçün hüquqi məsuliyyət yaratmır. Lakin, Tərəflər xoş məramla bu Razılaşmanın müddəalarını yerinə yetirmək üçün səy göstərəcəklər. Bu 4-cü bənd və 3-cü bənd ilə əlaqədar Tərəflər arasında yaranan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən həll olunur.

## 5. Razılaşmanın qüvvəyə minməsi

Bu Razılaşma bütün Tərəfləri təmsil edən səlahiyyətli nümayəndələrin onu imzaladığı gündən qüvvəyə minir.

## 6. Razılaşmaya qoşulma

Bu Razılaşma qüvvəyə mindikdən sonrakı dövrdə Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin bu Razılaşmaya əlavə olunmuş Qoşulma Aktını imzalamaqla qoşulması üçün açıqdır.

## 7. Razılaşmanı tərk etmə

7.1. Tərəflərin hər bir üzvü Katibliyə qabaqcadan tərketmə tarixi göstərilən yazılı bildiriş göndərməklə bu Razılaşmanı tərk edə bilər. Katiblik yazılı bildirişi bütün tərəflərə göndərir.

7.2. Razılaşmanın 3-cü bəndində və 4-cü bəndində qeyd olunmuş öhdəliklər Tərəflərin bu Razılaşmanı tərk etmiş hər bir üzvünə şamil olunmaqda davam edəcək.

## 8. Razılaşmaya dəyişikliklər edilməsi

Hasilat sənayesində şəffaflıq tədbirlərini təkmilləşdirmək məqsədi ilə Tərəflərin razılığı ilə bu Razılaşmaya müvafiq dəyişikliklər edilə bilər.

## 9. Digər məsələlər

9.1. Bu Razılaşma iki nüsxədə, Azərbaycan və İngilis dillərində "__" _____ 2017-ci il tarixində Bakı şəhərində imzalanmışdır. Hər-hansı anlaşılmazlıq yaranarsa Azərbaycan dilindəki mətnə üstünlük verilir.

9.2. Bu Razılaşmanın imzalanmış nüsxəsi Katiblikdə saxlanılır və surətləri bütün tərəflərə təqdim olunur.

9.3. Bu Razılaşma əsasında veriləcək və ya ediləcək hər hansı rəsmi bildiriş, təsdiq və ya digər məlumat mübadiləsi yazılı şəkildə olmalıdır.

**Komissiya adından:**

İmza: ____________________

Ad: Şahmar Mövsümov

Vəzifə: Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru

**Şirkətlər adından**

| No | Şirkətin adı | Səlahiyyətli nümayəndə | Vəzifə | Imza |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

# ƏLAVƏ 1 (Şirkətlərin siyahısı)

**Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən və HSŞ-yə qoşulan yerli və xarici şirkətlərin siyahısı:**

1. Azərbaycan (AÇG) Limited
2. Azərbaycan (Şah Dəniz) Limited
3. Əli-Bayramlı Neft MMC
4. Salyan Neft MMC
5. Qobustan Neft MMC
6. BP Eksploreyşn (Kaspian Si) Limited
7. BP Eksploreyşn (Azərbaycan) Limited
8. BP Şəfəq-Asiman Limited
9. Statoil Apsheron A.S.
10. Türkiye Petrolleri Anonim Ortaqlığı
11. Törkiş Petroleum Oversiz Kompani Ltd
12. Total İ Ənd Pi Absheron B.V.
13. Şevron Xəzər, Ltd.
14. Ekson Azərbaycan Limited
15. Inpeks Sausvest Kaspian Si, Ltd.
16. İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk.
17. Naftiran Intertrade Co (NICO) Limited
18. ONCS Videş Limited
19. Lukoyl Oversiz Shah Deniz
20. Novatis Oyl F.Z.E.
21. Commonvels
22. Focnmeyt Əsets Limited
23. CNPC
24. Kura Valeey Development Company LTD
25. Karasu Development Company
26. Azen Oyl Kompani B.V.
27. Abşeron İnvestment Limited
28. Neftchala İnvestment Limited
29. Shirvan İnvestment Limited
30. Engie E and P Absheron BV

31. Bahar Energy Limited
32. UGE-LANCER PTE.LTD
33. R.V.Investment Group Services
34. AzGerneft
35. Salyan Oil
36. SGC Upstream MMC
37. Petro-Hong-Kong Pirsaat Oil
38. Petronas Azerbaijan Shah Deniz S.A.R.L
39. “AzerGold” QSC
40. Zenit Aran Oyl Kompani Limited

## ƏLAVƏ 2 (Hesabat formaları)

### Şirkətin dövlətə etdiyi ödənişlər barədə hesabat

**Şirkətin adı:** ______________________________ **VÖEN:** ______________________________

**Mülkiyyət növü:** **Xarici □ Yerli □**

**Fəaliyyət növü:** ______________________________________________________________

**Fəaliyyət üzrə iştirak forması:** ______________________________________________________________

**Hesabat dövrü: 1 yanvar – 31dekabr 20__ il**

| | **Ödənişlərin növləri** | **Ödəmələrin miqdarı və məbləği** | |
|---|---|---|---|
| **1.Şirkətin dövlətə köçürmələri (natura ifadəsində)** | | **Miqdarı** | **ölçü vahidi** |
| 1.1. | Neft | | milyon barel |
| 1.2. | Təbii qaz | | min kub metr |
| 1.3. | Səmt qazı | | min kub metr |
| 1.4. | Qızıl | | Unsiya |
| 1.5. | Gümüş | | Unsiya |
| 1.6. | Əsas metallar: | | Ton |
| | a) | | |
| | b) | | |
| 1.7. | Digər təbii ehtiyatlar: | | |
| | a) | | |
| | b) | | |
| | | | |
| **2.Şirkətin dövlətə ödənişləri (pul ifadəsində) *** | | **Məbləği (milyon ABŞ dolları)** | **Məbləği (milyon Azərbaycan manatı)** |
| 2.1. | Neft | | |
| 2.2. | Təbii qaz | | |
| 2.3. | Səmt qazı | | |
| 2.4. | Qızıl | | |
| 2.5. | Gümüş | | |
| 2.6. | Əsas metallar: | X | X |
| | a) | | |
| | b) | | |
| 2.7. | Bonuslar | | |
| 2.8. | Akrhesabı ödəmələr | | |
| 2.9. | Tranzit haqqı | | |

| | | | |
|---|---|---|---|
| 2.10. | Digər ödəmələr: | | |
| | a) | | |
| | b) | | |
| **2.Cəmi** | | | |
| **3.Vergilər** | | | |
| 3.1. | Royalti (mədən vergisi) | | |
| 3.2. | Mənfəət vergisi | | |
| 3.3. | Əlavə dəyər vergisi | | |
| 3.4. | Əmlak vergisi | | |
| 3.5. | Torpaq vergisi | | |
| 3.6. | Sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | |
| **3.Cəmi:** | | | |
| **4.Digər** | | | |
| 4.1. | | | |

**Şirkətin səlahiyyətli nümayəndəsi:** ________________________ möhür

(imza, soyadı, adı)

**Hesabatın doldurulma tarixi:** ________________________

* Şirkət tərəfindən dövlət büdcəsinə ödənişlərin eyni zamanda həm manat, həm də xarici valyuta ilə aparıla biləcəyini nəzərə alaraq, ödənişlərin aparıldığı valyutadan asılı olaraq uyğun hesabat xətti üzrə dəyər sütünundakı müvafiq xana (dollar və / və ya manat) doldurulmalıdır. Vergüldən sonra üç rəqəm göstərilməlidir.

* Aşağıdakı xanada şirkətin qazın ölçülməsində istifadə etdiyi parametrlər dəqiq göstərilməlidir.

| |
|---|
| |

Digər qeydlər

| |
|---|
| |

**Hasilat sənayesi ilə məşğul olan yerli və xarici şirkətlərin dövlətə ödənişləri barədə hesabatın tərtibinə dair**

# TƏLİMAT

1. Bu Təlimat Komissiya tərəfindən qəbul edilmiş hesabat formalarının Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən şirkətlər (yerli və xarici) tərəfindən doldurulması qaydalarını müəyyən edir.

2. Hesabat formaları hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin dövlətə ödənişləri barədə məlumatların toplanmasına və aparılmış ödənişlərin şəffaflığının təmin edilməsinə xidmət edir.

3. Bu təlimat Azərbaycan Respublikasında neft və qaz ehtiyatlarının, əsas metallar, habelə qiymətli metalların hasilatı ilə məşğul olan şirkətlərə aid edilir.

4. Hesabat formasını doldurmazdan əvvəl təlimatla tanış olmaq, o cümlədən əvvəlki ilin hesabatlarını nəzərdən keçirmək tövsiyə olunur (bax: www.eiti.az). Hesabat formaları böyük çap hərfləri ilə doldurulmalı, qaralamalara və düzəlişlərə yol verilməməlidir. Təsdiq edilmiş rəqəmlərin yuvarlaqlaşdırılması dəqiq aparılmalıdır (daxil edilmiş rəqəmlərdə vergüldən sonra 3 rəqəm göstərilməlidir. Məsələn, 125,450, yəni yüz iyirmi beş tam mində dörd yüz əlli və ya 65,000, yəni altmış beş).

5. Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlər illik (1 yanvar-31 dekabr müddətini əhatə edən) hesabat formalarını doldurmalı və birbaşa Komissiya tərəfindən seçilmiş Müstəqil Auditora müəyyən edilmiş hesabat tarixinədək təqdim etməlidirlər. Auditordan sorğuların gəlməsi ehtimalını nəzərə alaraq, bütün ödənişlər üzrə məlumatlar rəsmi sənədlərlə (məsələn, mənfəət vergisi bəyannamələri, ödəniş tapşırıqları, üzləşmə aktları, təhvil verilən təbii ehtiyatın aktları, köçürmələrə dair lazımi qurumlara məktublar və s.) əsaslandırılmalıdır.

6. Hesabat formalarının doldurulması zamanı aşağıdakılara əməl edilməlidir:

   6.1. “Şirkətin adı” sətrində şirkətin hüquqi adı tam şəkildə yazılır. Təqvim ili ərzində Şirkətin hüquqi statusu dəyişildikdə hesabatın “Digər qeydlər” bölməsində qeyd olunmalıdır.

6.2. “VÖEN” sətrində vergi orqanında qeydiyyata alınmış vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (“VÖEN”) əks olunur. Hər VÖEN üçün ayrıca hesabat forması doldurulmalıdır.

6.3. “Mülkiyyət növü” sətrində şirkət tərəfindən müvafiq xana seçilməlidir.

6.4. “Fəaliyyət növü” sətrində şirkətin müvafiq olaraq mədən hasilatı sənayesində hansı fəaliyyəti göstərməsi barədə məlumat qeyd olunmalıdır. (Misal: xam neft hasilatı sahəsi, təbii qaz hasilatı sahəsi, qızıl hasilatı sahəsi və s.)

6.5. “Fəaliyyət üzrə iştirak forması” sətrində şirkətin mədən hasilatı üzrə fəaliyyətinin qanunvericilik bazası (Məsələn, pay bölgüsü haqqında saziş, konsessiya sazişi, yerli hökumət, yerli dövlət şirkəti ilə birgə fəaliyyət və s.) göstərilməlidir.

6.6. Şirkət bir neçə pay bölgüsü haqqında sazişdə iştirak etdiyi və yaxud sazişlərdə müxtəlif ödəniş vahidləri göstərildiyi halda, şirkətin ödənişləri hesabat formasının sətirlərində hər bir ödəniş növünün toplam rəqəmi şəklində göstərilməlidir.

6.7. Hesabat formalarında dəyərlə bağlı göstəricilər yalnız ödənişin həyata keçirildiyi valyuta ilə (ABŞ dolları və yaxud Azərbaycan manatı) əks olunmalıdır.

6.8. Hər hansı istiqamət üzrə ödəniş olmayıbsa, uyğun xanada “0” rəqəmi və ya “-” işarəsi yazılmalıdır.

6.9. Şirkətin hasilatında dövlətə məxsus olan və dövlətə natura ifadəsində köçürülmüş təbii ehtiyatlar “Şirkətin dövlətə köçürmələri (natura ifadəsində)” adlanan 1-ci bölmənin 1.1.-1.7. altbəndlərində göstərilməlidir. Bu bölmədə hasil olunmuş məhsulların dünyada qəbul olunmuş ölçü vahidləri ilə hesabatın müvafiq sətirlərində göstərilməsi nəzərdə tutulmuşdur.

6.10. Şirkətin hasilatında dövlətə məxsus olan və dövlətə dəyər ifadəsində ödədiyi məbləğlər “Şirkətin dövlətə ödənişləri (dəyər ifadəsində)” adlanan 2-ci bölmənin 2.1.-2.10. altbəndlərində göstərilməlidir. Bu bölmədə hasil olunmuş məhsulların satışından əldə olunmuş vəsaitlərin dəyərinin hesabatın müvafiq sətirlərində göstərilməsi nəzərdə tutulmuşdur.

6.11. Şirkətlərin ödədiyi vergilər 3-cü bölmədə (3.1.-3.7. altbəndləri) əks etdirilir (Ödəmə mənbəyindən tutulan vergilər, fiziki şəxslərin gəlir vergisi, işçilərin əmək haqqından tutulan Dövlət Sosial Müdafiə Fonduna ayırmalar istisna olmaqla).

6.12. Bu hesabat formasında nəzərə alınmamış və HSŞ çərçivəsində hesabat verilməsinə qərar verilmiş istiqamətlər üzrə ödənilən digər hər hansı ödənişlər "Digər ödənişlər" sətrində əks olunmalıdır.

6.13. Hesabat formasında hər hansı sətrin və ya sütunun açıqlamasına zəruriyyət yarandıqda "Digər qeydlər" bölməsində müvafiq qeydlər aparılır.

6.14. Şirkətlər tərəfindən HSŞ hesabatlarında aşağıdakı məlumatlar hesabatlara daxil edilməməlidir:

6.14.1 Kommersiya fəaliyyəti ilə bağlı ödənişlər. Məsələn, Şimal Marşrutu üzrə tranzit ödəmələr (hesabatın 2.9 sətrində qeyd olunan məlumatlar istisna olmaqla) SOCAR-a kommersiya ödəmələri kimi daxil olduğundan hesabatlara daxil edilməməlidir;
6.14.2 Şirkətlər tərəfindən SOCAR-a kompensasiya nefti kimi köçürülmüş məbləğlər;
6.14.3 Şirkətlər tərəfindən ödənilmiş maliyyə sanksiyaları.

7. Hesabatlar təqdim edən şirkətin səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlə təsdiqlənməlidir.

## Azərbaycan Respublikası dövlətinin hasilat sənayesində əldə etdiyi məcmu daxilolmaları barədə hesabat

| Daxilolmalar | | MƏBLƏĞİ* | | MİQDARI | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | milyon ABŞ dolları | milyon Azərbaycan manatı | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | mis konsentratında qızıl (min unsiya) | mis konsentratında gümüş (min unsiya) |
| 1 | | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1. Dövlətə xarici şirkətlərdən daxilolmalar** | | | | | | | | | | |
| 1.1 | **Neft** | | | | | | | | | |
| 1.2. | **Təbii qaz** | | | | | | | | | |
| 1.3. | **Səmt qaz** | | | | | | | | | |
| 1.4. | **Əlvan metallar (mis)** | | | | | | | | | |
| 1.5 | **Qızıl** | | | | | | | | | |
| 1.6 | **Gümüş** | | | | | | | | | |
| 1.7 | **Dövlətə digər ödənişlər, cəmi, o cümlədən :** | | | | | | | | | |
| | 1.7.1. mis konsentratında qızıl | | | | | | | | | |
| | 1.7.2. mis konsentratında gümüş | | | | | | | | | |
| **2. Dövlətə yerli şirkətlərdən daxilolmalar. Yerli şirkətlərin hasilatında dövlətə məxsus pay** | | | | | | | | | | |
| 2.1. | **Neft** | | | | | | | | | |
| 2.2. | **Təbii qaz** | | | | | | | | | |
| 2.3. | **Səmt qaz** | | | | | | | | | |
| 2.4. | **Əsas metallar** | | | | | | | | | |
| 2.5. | **Qızıl** | | | | | | | | | |
| 2.6 | **Gümüş** | | | | | | | | | |
| **3. Dövlətin xarici şirkətlərdən digər daxilolmaları (yerli dövlət şirkəti vasitəsilə toplanmış ödənişlər daxil olmaqla)** | | | | | | | | | | |
| 3.1. | **Royalti (mədən vergisi)** | | | | | | | | | |
| 3.2. | **Mənfəət vergisi** | | | | | | | | | |
| 3.3. | **Digər vergilər (fiziki şəxslərin gəlir vergisi, sosial və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla)** | | | | | | | | | |
| 3.4. | **İmzalanma bonusları və digər bonuslar** | | | | | | | | | |
| 3.5. | **Lisenziya və konsessiya haqları** | | | | | | | | | |
| 3.6. | **Dövlətə digər ödənişlər, cəmi, o cümlədən :** | | | | | | | | | |
| | 3.6.1. **akrhesabı ödənişlər** | | | | | | | | | |
| | 3.6.2. **tranzit haqqı** | | | | | | | | | |
| | 3.6.3. **qazın satışı üzrə müqavilə qiymətində edilmiş dəyişiklik nəticəsində yaranmış fərqdən daxilolmalar** | | | | | | | | | |
| **4. Dövlətə yerli şirkətlərdən digər daxilolmalar** | | | | | | | | | | |
| 4.1 | **Vergilər:** | | | | | | | | | |
| | 4.1.1. **Royalti (mədən vergisi)** | | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 4.1.2. **Mənfəət vergisi** | | | | | | | | | |
| | 4.1.3. **Əlavə dəyər vergisi** | | | | | | | | | |
| | 4.1.4. **Torpaq vergisi** | | | | | | | | | |
| | 4.1.5. **Əmlak vergisi** | | | | | | | | | |
| | 4.1.6. **Qiymət fərqi** | | | | | | | | | |
| | 4.1.7. **Sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla)** | | | | | | | | | |
| 4.2. | **İmzalanma bonusları və digər bonuslar** | | | | | | | | | |
| 4.3. | **Lisenziya və konsessiya haqları** | | | | | | | | | |
| 4.4. | **Dövlətə digər ödənişlər, cəmi, o cümlədən :** | | | | | | | | | |
| | | **ABŞ dolları (milyon)** | **Azərbaycan manatı (milyon)** | **neft (milyon barel)** | **qaz (min kub metr)** | **qızıl (min unsiya)** | **gümüş (min unsiya)** | **əlvan metallar (min ton)** | **mis konsentratında qızıl (min unsiya)** | **mis konsentratında gümüş (min unsiya)** |
| **Cəmi:** | | | | | | | | | | |

**Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın sədri:** ________________________________ möhür

**Hesabatın doldurulma tarixi:** ________________________________

| |
|---|
| **Qeyd:** |

# ƏLAVƏ 3 (Qoşulma aktı)

**Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın Azərbaycanın Hasilat Sənayesində Fəaliyyət Göstərən Yerli və Xarici Şirkətlərlə Əməkdaşlığına dair Razılaşmaya**

**QOŞULMA AKTI**

Nəzərə alaraq ki, Azərbaycan Respublikasının Prezidenti “hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərman imzalamışdır;

Nəzərə alaraq ki, Azərbaycan Respublikasının Prezidentinin “hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya yaradılmışdır;

Nəzərə alaraq ki, ............................................ şirkəti Azərbaycan Respublikasının hasilat sənayesində fəaliyyət göstərir və buna görə də, HSŞ üzrə Komissiya tərəfindən Azərbaycanda fəaliyyət göstərən digər hasilat şirkətləri kimi HSŞ-ni tətbiq etmək məqsədilə Razılaşmaya qoşulmaq barədə dəvət almışdır:

1. ............................................ şirkəti Razılaşmanın şərtlərinə uyğun olaraq Razılaşmanın bütün digər tərəfləri ilə əməkdaşlıq etmək niyyəti ilə bu Qoşulma Aktını imzalayaraq Razılaşmaya qoşulur.

2. Bu Qoşulma Aktı iki nüsxədə Azərbaycan və ingilis dillərində imzalanmışdır və hər iki nüsxə bərabər qüvvəyə və təsirə malikdir.

3. Qoşulma Aktının imzalanmış nüsxəsi HSŞ üzrə Komissiyanın Katibliyində saxlanılır. Onun surətləri Razılaşmanın tərəflərinə təqdim olunur.

**............................................. şirkəti tərəfindən:**

______________ 20______ il tarixində imzalanmışdır.

# Əlavə 4

## Azərbaycanın hasilat sənayesinə dair digər məlumatlar

Digər məlumatlar əsasən aşağıdakıları əks etdirir:

a) Hasilat sənayesində hüquqi və fiskal rejim;
b) lisenziyaların təyinatı;
c) lisenziyaların reyestri;
d) müqavilələr;
e) hasilat sənayesində dövlətin iştirakı;
f) kəşfiyyat və hasilat;
g) gəlirlərin bölüşdürülməsi;
h) gəlirlərin idarə edilməsi və xərcləri;
i) sosial xərclər;
j) kvazi-fiskal xərclər;
k) hasilat sənayesinin iqtisadiyyata töhfəsi.